Rəfail Tağızadə

# Gecə xəyalları

Rəfail  Tağızadə

# Gecə xəyalları

«Издательские решения»

**Tağızadə R.**

Gecə xəyalları / R. Tağızadə — «Издательские решения»,

ISBN 978-5-44-984368-5

«Gecə xəyalları» şair Rəfail Tağızadənin oxucularla üçüncü görüşüdür.Bu kitabda şairin şeirləri və məşhur polyak bəstəkarı Frederik Şopenə həsr olunmuş «Şopenin ürəyi» poeması yer almışdır.Kitab geniş oxucu kütləsi üçün nəzərdə turtulmuşdur.

ISBN 978-5-44-984368-5

© Tağızadə R.
© Издательские решения

# Содержание

RəfaİI Tağızadə 7
Nİgaranlıq 11
vİtrİndəkİ paltarlar 12
Darıxan gecə 13
Dənİz sahİlİndə 14
Yaradan aparar mənİ 15
Yuxumu qarışdırmışam 16
ürək 17
sahİbsİz bağ evlərİ 18
gecə xəyalları 19
ovqat 20
I 20
II 21
III 22
ay gecənİn şəklİnİ çəkİr 23
sən 24
Yollar 25
Bİr kənd mənzərəsİ 26
Yol 27
Şəhər tənhalığı 28
Çarəsİzlİk 29
Elmar Hüseynovun oğluna 30
Uşağın duası 31
azadlığa hamİlə zaman 32
Boşluq 33
gecə hekayətİ 34
ormanda bİr yaşıl ağac 35
doğum günü 36
adİl mİrseyİdİn akvarellərİ 37
yollarda qalan baxışlar 38
Kəndİmizə qar yağır 39
Həzİn duyğular 40
Mən bİr sİmurq quşu 41
Gecə baxışları 42
Qürbətdə qar 43
Mənİ səndən alan qatar 44
Lİstopad 45
məhkəmə bİnası qarşısında 46
bənzəyİş 47
Yorğun şəhər 48
Sənİn gecən 49
Palatada yazılan şeİr 50
Gözlərİndə bİr röya 51
Qoca balıqçı 52
nöqtəsİz ayrılıq 53
Sankt-Peterburqda bəyaz gecə 54

Qumru quşu 55
Görüş 56
həsrət 57
təəssürat 58
əzab 59
ayrılıq gecəsİ 60
Конец ознакомительного фрагмента. 61

# Gecə xəyalları

# Rəfail Tağızadə

© Rəfail Tağızadə, 2020

ISBN 978-5-4498-4368-5
Создано в интеллектуальной издательской системе Ridero



# RəfaİI Tağızadə
# Gecə xəyallaRı

**Rəfail Tağızadə üçün**
**poeziya nöktürnü**

İllər öncəsi Rəfail Tağızadənin şeirləri haqqında yazdığım essedən bəzi fraqmentləri bir daha oxucularımız və şairin özü üçün xatırlatmaq istərdim. Rəfail Tağızadə Qarabağda doğulub boya-başa çatıb, indi o tutya torpaqlarımız düşmən işğalına məruz qalıb. Rəfail bir qatara bilet alıb döğulduğu yerə gedə bilmir. Orda kənd qəbiristanlığında şairin ulu babalarının məzarı başında yasin oxuyan yoxdu…

Rəfail Tağızadənin şeirləri reallığı, yəni Qarabağ reallığını fotoqrafik bir dəqiqliklə əks etdirir. Bəzən rakuslar dəyişir, işıq-kölgə effektləri biri-birini əvəzləyir, amma ağ-qara fotolara bənzəyən şeirlərin üzərində qan izi gördüm…

***Sərhədlər kəsdi əlimi***
***barmaqlarım qan içində.***
***Bölgə-bölgə can veririk***
***xəritədə an içində.***

Daha bir şeirdən nümunə;

***Ayrılıq yaman acıdı,***
***dərdimə aləm acıdı,***
***Vətən torpağın tacıdı,***
***qoymağa başlar tapıla.***

Və qan rəngli misralar;
***Qarabağ,***
***gedib yenə gələcəyik,***
***yurd uğrunda son savaşda***
***biz ölümə güləcəyik.***

R. Tağızadənin ilk kitabı «Qapı» -2004-cü ildə çap olunub. Mən Rəfailin iki kitabının redaktoru olmuşam və o əl boyda iki şeir toplusuna ön söz yazmışam.

İndi dostumuz üçüncü kitabını çapa hazırlayır. Atalarımız üçdən deyiblər, amma könül istərdi ki, yeddi desin. İnşallah, şairin yeddinci kitabı ilə öz oxucularını sevindirəcəyi günləri də görəcəyik. Və hər dəfə şair bizim üzümüzə yeni bir «QAPI» açacaq.

Nədənsə Aydın Əfəndini, Nizami Aydını xatırladım, hər iki istedadlı şairin ilk kitabları ölümlərindən sonra çap olundu. Doğrudan da ölümündən sonra başlayır şair ömrü. On beş yaşında ilk şeirləri oxucuların diqqətini cəlb edən Əhməd Mühib Dranasın ilk kitabı yarım əsrdən sonra 65 yaşında yayınlanıb. «Həsrətindən kələbçələr (qandallar) çürütdüm» – deyə dünyaya və insanlığa bağıran, bəlkə də pıçıldayan Əhməd Arifin sağlığında bir kitabı vardı. Şairin ölümündən sonra bu kitab düz otuz iki dəfə çap olundu.

* * *

Mən fatalist adamam, Taleyə, metofizik olaylara və əlamətlərə səmimi-qəlbdən inanıram. Rəfail Tağızadə ilə fəlsəfi-estetik baxışlarımız, vərdişlərimiz, üslublarımız fərqli ola bilər, amma qəlbimizə və misralarımıza eyni yerdən, eyni işıq düşür.

Bəzi tənqidçilərimiz kimi poeziyaya, ümumiyyətlə incəsənətə rasional düşüncəylə yanaşmıram. Mən hardasa bohem adamam və bütün bohem adamlar kimi spontan, intiutiv bir həyat yaşayıram. Aydın Əfəndinin, Fəyyad Xamisin, Andrey Voznesenskinin, Nazim Hikmətin, Atilla İlhanın, səkkizinci əsrdə yaşamış çin şairi Van Veyin, fələstinli Mahmud Dərvişin və Vaqifin (V.B. Odər) şeirləri, Qoyyanın, Van Qoqun, Maqrittin, Sezannın, Bəhlulzadənin və Mircavadın tabloları, Alfred Şinitkenin, Con Lenonun, Morissonun, Loqrenin və iyirmi beş yaşlı Türkər Qasımzadənin musiqisi ən ağır, ən kədərli anlarımda mənim sirdaşım olub.

…Rəfail Tağızadə ilə ilk tanışlığımız yaxşı yadımdadır, yaxşı yadımdadır ki, ilk görüşümüzdən sonra uzun illərin dostları kimi ayrılmışdıq.

2004-cü ildə Rəfailin ilk kitabı işıq üzü gördü. Əslində bu kitabda toplanmış şeirlərin üzünə çoxdan işıq düşmüşdü. Rəfail poeziya sevərlərin üzünə bir «QAPI» açmışdı və bu QAPIDAN süzülən işıq şüası onun şeirlərinə, misralarına, sözlərinə hopmuşdu. Onun ilk kitabı Ömür adlı şeirlə açılır. Deməli, Rəfail QAPI arxasında bir şair, bir vətəndaş ömrü yaşayır.

***Ağacın yaylığı ayaqlar altda***
***yeriyə bilmirəm çığırtısından.***
***Çılpaq ağacların əlləri göydə***
***yarpağın son dua pıçıltısından.***

***Göyün üzün alıb qara buludlar,***
***pərdələr üşüyür bomboz otaqda.***
***Səmtini itirib, yolunu azıb,***
***cığırlar o kövrək yarpaq yataqda.***
«Payız lövhələri"ndən daha bir epizod;
***Soyudur ağacı payız özütək***
***əl etmir yanından ötən qatara,***
***kölgədə yazılan xatirələri***
***kimsəsiz vaqonlar yığıb apara.***

Rəfail Tağızadənin poeziyası payız üstə köklənib. Bir çox şair dostlarımızın poeziyasında payız ovqatı önəmli yer tutur. Payız rəssamların və şairlərin fəslidir. Rəfailin son illər qələmə aldığı şeirlərini oxuyanda İsaak Levitanın və Səttar Bəhlulzadənin tablolarını xatırlayıram. Rəfailin payız peyzajlarında ağacların yaylığı ayaqlar altında qalır, ağacların əlləri havada çırpınır.

***Yenə gəlib çatdı payız axşamı,***
***yenə bu könlümdə küləklər əsir,***
***axşam süfrəsində boş qalıb bir yer***
***kölgələr dolaşır, kölgələrdə sirr.***

Etiraf edək ki, bu misralardan payız qoxusu gəlir. Misralar sanki akvarel boyalarla çəkilmiş naxışlardı. Şair naxış-naxış misralardan payız xalısı toxuyur. Və bu naxışlar bizim milli ornamentlərimiz kimi gözü-könlü oxşayır. Misraların ovsunu sadəcə gözü-könlü oxşamaqla qalmır, sanki birdən-birə canlanır. Canlanır və bizim sevincimizə, kədərimizə, ümidimizə şərik olur. Şair payızda çiçəkləyən ağaclar kimi göyüzünə boylanır-göyüzündə qərib durnalar…

***çıxdım qapıdan***
***arxamca su at***

Rəfail Tağızadə yeni bir kitabı ilə yola çıxır. Şairin arxasınca bir dolça su atın…

* * *

Yuxarıda qeyd etmişdim ki, Səttar Bəhlulzadə və İsaak Levitanın rəng əlvanlığı Tağızadənin son illər yazdığı şeirlərdə daha qabarıq şəkildə özünü büruzə verir, amma bu rəng əlvanlığı həzin bir qüssə ilə süstlənib. Başqa bir önəmli nəsnə isə şairin sözlərlə, kəlmələrlə, misralarla çəkdiyi mənzərələrin az qala fotoqrafik bir dəqiqliklə təsvirindən ibarətdir.

Rəfail Qədir Rüstəmovun, Səxavətin yanıqlı bir səslə oxuduqları muğamı və Şopenin polifonik musiqisini sevir – bu musiqi onun payız mənzərələrinin, «Polşa şeirlərinin» musiqisidir. Payız həm də xatirələr fəslidir, indi şair ömrünün xatirələr fəslini yaşayır;

***Ağrıdı, acıdı, şirindi, baldı,***
***gəldimi, getdimi, itdi, ya qaldı,***
***yığıb saxladığın yoldamı saldı?***
***Gedə bilmədiyi yerlərdən gələn***
***xatirə yaşadır insanı bəzən.***

Şair insan ürəyinin qan rəngli dumanda yarpaq kimi çırpındığı bir ormanda tənha bir ağacın taleyinin gerçəkdən bir faciə olduğu duyğusu bilincaltında uyuyan zamanın əksini çəkir elə bil. Burda insanların dili lal, qulağı kardı, burda göyüzü damar-damardı. Fəqət, burda göyüzündə «Allahın qəlblərə baxdığı yerdən» yağış yağmır, burda göyüzündən qan damır…

Burda insanlar öz ad günlərində anasız doğulurlar…

***Aydan boylanan bulud***
***bağlayır çərçivəsiz qapımı,***
***örtür şüşəsiz pəncərəmi…***

Az qala unudacaqdım-Rəfail Tağızadənin şeirlərində buludlar axıb gedir. Buludlar… buludlar…

Araşdırma və ya bir resenziya sənətkar haqqında tam doğru-düzgün mənzərə yarada bilməz, olsa-olsa onun həyat və yaradıcılığına işıq tuta bilər. Bir rəssamın tablosunu öz gözlərimizlə görməliyik, şairin şeirini oxumalıyıq, mütləq oxumalıyıq.

…Açıq qapı arxasından musiqi səsi eşidilir – bu Şopenin nöktürnüdür.

***Musiqiçi dostum***
***bir nöktürn çal.***
***Məni məndən qopar,***
***məni məndən* al.**

Şopen musiqiylə, Rəfail Tağızadə şeirləriylə Yaradana dua edirlər…

* * *

Telefon zəng çalır – dəstəkdə Rəfailin səsi. Ordan-burdan, mənim səhhətimdən, Suriyadan, Fələstindən, Qarabağdan və Əkrəm Əylislidən danışırıq…

Yenidən masa arxasına keçirəm, amma daha yaza bilmirəm, bu yazı bir telefon zəngi ilə bitir. Içimə çökmüş nisgillərin acısı gözlərimi yandırır…

Şeir şairin daxili monoloqudur, yəni iç səsidir.

Rəfail Tağızadənin iç səsini-monoloqunu dinləyin…

«Gecə xəyalları» haqqında düşünün…

Şairin gecə xəyalları ilə öz gecə xəyallarınız arasında bağlılıq tapacağınıza ümid bəsləyirəm, bu isə şair xoşbəxtliyidir.

* * *

İnsan doğulduğu torpağa bənzəyir. Rəfail Tağızadə Qarabağa oxşayır…

**Adil Mirseyid**

# NİGARANLIQ

Taleyin boz fəsli dəyişmir hələ,
bu ömür baharla sevişmir hələ,
gecədə ay da yox, gündüz də belə,
gün keçir, ay ötür, könül nigaran.

Günahlar atılır zamanın üstə,
ömürlər əriyir gümanın üstə,
yaxşılar savaşır yamanın üstə,
gün keçir, ay ötür, könül nigaran.

Əllərdən qaçanlar gözlərdən qaçır,
kar qulaq haqq olan sözlərdən qaçır,
yorulan yollar da izlərdən qaçır,
gün keçir, ay ötür, könül nigaran.

Tabladıq dərdlərə dözənə qədər,
xərcləndik günləri üzənə qədər,
yaşadıq, bu ömrü çözənə qədər,
gün keçir, ay ötür, könül nigaran.

*10.01.2011*

# vİtrİndəkİ paltarlar

alıcısını gözləyən vitrindəki paltarlar
utanar yaman,
utanar zaman-zaman
kirayənişin bədənə
geyinilib soyunulmaqdan

vitrindəki paltarların
«apar məni, apar məni» deyən,
yalvaran baxışları
uzanar…, uzanar qapıyacan

vitrindəki paltarlar
bir anlıq xoş baxışlara aldanar

vitrindəki paltarlar
umud asılqanından asılar
gecədən səhərədək

vitrindəki paltarlar
xəyallarında
bir isti bədənə sığınıb gəzər
yaz gecələrində,
şəhərin tənha küçələrində.

*31.01.2008*

# Darıxan gecə

Bu darıxan gecədə
nə dənizin dalğası,
nə də ki bir kölgə var
üzümə toxunası.

Bu gecə qonaq ay yox
mənimlə söhbətləşə,
bu lal-dinməz gecədə
dərdlərimiz dərdləşə.

Bu darıxan gecəni
qaranlığın qoynunda
səhərə daşıyıram
əllərimin içində.

*03.01.2011*

# Dənİz sahİlİndə

Göydən baxan baxışlar,
məni sevir, bağışlar,
bu yuxular qoynunda,
bu tənhalıq içində.

Sahillərdə hasarlar,
aşsam məni asarlar,
saralmış əncirindən,
meynəli kəndirindən.

Qayasında gül oldum,
bağında bülbül oldum,
dibində lal, dənizin,
ləhcəsi bal, dənizin.

*05.03.2011*

# Yaradan aparar mənİ

Günlərim qar tək əriyir,
illərim özündən gedir,
ümidim tək işığaydı
o da ki gözümdən gedir.

Özümmü sevim özümü
həsrət məni yoranacan,
zalım fələk, dəymə mənə
qoy yaşayım doyanacan.

Məni görüb hara qaçdın-
qorxma məndən, qorxma, adam,
neyləyim, sizlik olmadım
bu dünyaya tamam yadam.

Daş atmadım özgəsinə,
kor şeytanla ilişkim yox,
Yaradan qoruyar məni
bu yer ilə bir işim yox.

*05.03.2011*

# Yuxumu qarışdırmışam

Yuxumu qarışdırmışam…
əqrəbdən asılan fikirlər
udur gecə saatlarını,
zamansız qaranlıq asılıb pəncərədən
ayın son işartıları yox olur göy üzündən,
əriyən gecə səhərə doğru axır,
pərdənin solan gülləri
maddım-maddım üzümə baxır.
Xəfif, çox xəfif bir rüzgar əsir
dolaşıq düşüncələrdən.
Olmadığım gecə hələ qurtarmamış
səhərın gümanları yapışıb
qapımın darıxan dəstəyindən.
Qulağıma qışqırır itən zaman,
dağılır boş məkan,
bu gecə sən yoxsan yuxularımda,
bu gecə mən də yoxam yuxularında.

Gecə də mənim deyil gündüzlərim tək
zamansız qaranlıq asılıb pəncərədən.
Zamansız qaranlıqda
həsrətim, intizarım,
zamansız qaranlıqda
saatın əqrəbindən
asılı qalmışam mən…

*2009*

# ürək

neynirdim iki əli, ayağı,
iki gözü, qulağı,
bu qədər barmağı neynirdim?
mənə iki ürək verəydin, Allah.
ağrıyanda dəyişdirib
birini sağıma qoyardım,
bir az rahat olardım.
neynirdim iki ayağı?
biri Qarabağda minaya düşəcək
kül olmuş bir kənddə özümü axtaranda.
neynirdim, bu qədər barmağı, neynirdim?
onsuz da bir əl, beş barmaq
narahat ürəyimi ovcunda saxlar.

*08.11.2004*

# sahİbsİz bağ evlərİ

səs-küysüz,
sahibsiz bağ evi,
hasarından sarı əncir sallanır,
qapından qara qıfıl…

itin yox
yoldan ötənə hürə…
samovarın dızıldamır,
çarpayın cırıldamır…

quyunun suyu quruyub,
evin taxta pilləkənləri,
həyətin manqalı çürüyüb…

otaq xatırlamır
sonuncu uşaq səsini,
doğma adam nəfəsini…
neçə şəhər adamının
xatirəsi üşüyür qucağında

olmuşları siləcək fərman yazılıb darvazana:
«S A T I L I R» tel. 050 315 4…

*24.10.2004*

# gecə xəyalları

olanlarımızı basdırdım
bu gecə xəyallarımda.
boğdum özüm-özümü sənin əllərinlə.
boğazımda səni qatil edən barmaq izlərin.
can verən xəyallar çırpınır
boş otaqda,
köhnə yataqda.
köçəcəyəm adına yazdığım
bu gecədən,
adsız küçədən.
aydan ayrılan bulud
bağlayır çərçivəsiz qapımı,
örtür şüşəsiz pəncərəmi.

*2010*

# ovqat

## I

meşə,
uzanan yol,
şütüyən maşın sayğacının
ötən rəqəmləri
xatirələrimi çözələyir
tala-tala,
orman-orman…

qar yağır
aman-aman…

# II

maşında yazılan şeiri
döngədə qəfil basılan əyləc
quş kimi uçurtdu pəncərədən

hecalar diksinib
havaya səpələndi bir anda

yarpaqlar not vərəqləri,
dirijor külək
bu gün meşədə
qışın 10-cu simfoniyasını səsləndirir
son akkordunadək…

# III

durnalara qoşulub getmərəm
bu ölkənin qışından.
doğmadı qarı mənə,
çatlamış narı mənə.
qar basmış cığırlar tale yolları,
Babəkin qollarına bənzəyir
ağacların budanmış qolları.
tüstüsü təpəsindən çıxan evin
içində tənhalıq ocağı alovlanır.
dodaqlarımı yandırır oxunmamış nəğmələr,
məni həsrətə öyrədir sənin yoxluğun.

*17.12.2004*

# ay gecənİn şəklİnİ çəkİr

Sankt-Peterburq…
bəyaz gecə
Nevanın suları
sahil betonlarını döyəcləyir,
geriyə qayıdan ləpələr
çayın yarıyuxulu üzünü yuyur.
qolboyun cavanlar dirsəklənib
açılan körpüyə,
ötüb gedən sular
burulub şahə qalxmış körpünün
çayın üzündəki kölgəsinə baxır,
sular körfəzə doğru axır…, axır…

buluddan sıyrılan bədirlənmiş ay
gecənin və şəhərin şəklini çəkir…

*01.06.2004*

## sən

süzüb ayaqdan başacan,
baxıb dodaqdan qaşacan,
səni gözlərimə yedizdirəcəyəm.
sonra da oturub ayna qabağında
könlümə köçürəcəyəm…

*2010*

# Yollar

İzi yox olmuş yollarım
tük basmış üzüm kimidi,
giləsin quşlar aparan
qurumuş üzüm kimidi.

Durub səni gözlədiyim
yol ayrıcı yoxdu, itib,
mənim izim qalan yerdə
görən hansı otdu, bitib?

Yamaclar nazilib yaman
köhnə xalıtək süzülüb,
axtarma yazıq cığırı,
cığır həsrətdən üzülüb.

Təklikdən darıxan yolu
durnalar aparıb gedib,
saxlayıb biz gələn yaza
payızdan qoparıb gedib.

*25.02.2004*

# Bİr kənd mənzərəsİ

Bu gecənin təzə ayı
buluda bürünüb gedir,
yurdun kimsəsiz yolları
xəlvətdə sürünüb gedir.

Ağacın ölən budağı,
saralan yarpağım hanı,
burda ölsəm de, üstümü
örtməyə torpağım hanı?

Bu gecənin ulduzları
elə bil bir-bir dərilib,
qalx, namaza duran kəndim
günbəzin yerə sərilib.

Bu gecənin təzə ayı
göy üzündən baxıb ağlar,
mən dağlara güvənmişdim,
bu dünyadan küsüb dağlar.

*09.09.2009*

# Yol

Bu torpağın bətnində
toxum ola bilmədim,
səni yaxşı tanıdım,
qohum ola bilmədim.

Hamıya qucaq açdım
adın uçmaq qoydular,
dartıb yerə yıxdılar
adın qucmaq qoydular.

Özümü ha dartıram
qol məndən qabaqdadı.
neçə ildi, qaçıram,
yol məndən qabaqdadı.

*23.01.2004*

# Şəhər tənhalığı

Bu şəhər içində kənd havasıyla
yol ölçdüm uzanan küçə boyunca,
meyvəsiz ağaclar kölgələrində
gəzdim bu parkları, gəzdim doyunca.

Bu qədər, bu qədər adam içində
nə salam verən var, nə salam alan.
Bir belə düzülən süfrə başından
soruşan olmadı: acmısan, oğlan?

Zülmlə tapdığım kirayə evin
görəsən neçənci qonağıyam mən?
Eyvana, zallara sığmayan kəsdim-
indi bu otaqda qalasıyam mən.

Bu gecə yuxuma kimlər girəcək?
Bu dar otaqların yuxusu qəliz,
eh, məni haradan tapacaqlar ki,
şəhər küçələri saxlamayır iz.

*08.02.2004*

# ÇarəsİzlİK

Nəfəsim də quruyub
bu ağac bədənimdə,
elə hey itiririk
insafsız bəd əlində.

Özgəyə çatan güclə
özümüzü döyürük,
yığışıb dəstə-dəstə
boş papağı öyürük.

Zamanın gərdişindən
xəlbir-xəlbir ələndik,
ölənlərə min rəhmət,
bizsə burda dirəndik.

Sümüyüm də əriyir
olanlarım göylərdə,
ruhum tufan qoparır
ağlaşırlar göylər də.

*14.02.2004*

# Elmar Hüseynovun oğluna

atasının qara lentli şəklini öpən körpə,
doyunca öpülə bilmədin, —
qısılıb ata qucağına
bolluca sevilə bilmədin

– ata, -deyib sevinmədin
güllələr atılan axşam,
yuxular yozulan axşam,
sükutlar pozulan axşam

ana bətnindəki uşaqların ahı tutacaq bu gecə
Allahsız adamları-
ata qatillərini

qara güllə səsindən
yalancı avtomatın
tətiyi yandırdımı
o körpə barmaqları,
o kövrək yarpaqları?

atan qulağınamı pıçıldayır
səni atasız qoyan qatilin adını?
sən də daddın atasızlıq dadını…

hər axşam yaddaşını döyən
o qəfil atəş səsi
açacaq sənin dilini,
günlərin birində

tutub gecənin yaxasından
hayqıracaqsan,
çökəcək gecənin tavanı
hanı bu yurdun cavanı?
öz körpəsi boğacaq,
körpə baxışlar dənləyəcək,
ata qatillərini
bu qaranlıq məmləkətdən…

qara lentli şəkli öpən körpə,
pıçılda atanın qulaqlarına olacaqları…

*18.03.2005*

# Uşağın duası

***«Allah baba, nə olar, atamı tez qaytar.***
***Nə istəsən verərəm.***
***İstəyirsən kuklalarımı sənə verim?»***
**Bir məhbus uşağının inşa yazısından**

Ata öpüşünə tamarzı cocuq,
nə vaxtdı başına sığal çəkilmir,
üzündə, gözündə donub təbəssüm,
nə vaxtdı baxtına sığal çəkilmir.

Arzusu göylərdə içilən körpə,
küsüb boyundan da kiçilən körpə,
doğmadan, özgədən seçilən körpə,
körpə yalvarışın yol gedir hələ.

O dəmir qapılar, taxta qapılar,
o yumşaq dərili saxta qapılar…
utan, çərçivədən laxla, qapılar,
körpə yalvarışı yol gedir hələ.

Qapılar ağzında diləklər durur,
titrəyən, döyünən ürəklər durur,
hökmlər ömürlərə möhürlər vurur,
körpə yalvarışı yol gedir hələ.

Körpələr nə bilər oxunan hökmü,
üst-üstə yığılan, toxunan hökmü,
tulla, uşaqlarçün yox olan hökmü,
körpə yalvarışı yol gedir hələ.

Evində üstünə yüyürər körpə,
ömrünü sevincə bürüyər körpə.
Baxıb bir şəkilə kiriyən körpə-
sənin yalvarışın yol gedir hələ.

*2004*

# azadlığa hamİlə zaman

əsrlərin sevgi ağrısını
gəzdirə bilmir
ürəyinin altında
azadlığa hamilə zaman,
əlini tanış binaların divarlarına,
tez-tez dəyişən insan sifətlərinə sürtə-sürtə,
əqrəbləri ilə qaranlığı döyə-döyə,
sərgərdan dolaşır tənha gecələrdə,
sərgərdan dolaşır yadlaşan küçələrdə,
yad baxışlar içini doğrayır,
nə üzü gülür,
nə boğub öldürə bilir,
nə doğub qurtula…
bir az da döz,
küçədən meydana yeri, yavaş-yavaş,
özünü qoru,
bu maskalı adamlar hamilə tanımırlar,
allahları yoxdu onların…

zaman azadlığa hamilə
qədəmlərin mübarək.

*18.06.2004*

# Boşluq

Buludsuzdu bu göyüzü,
bu ada-kimsəsiz ada,
boşluqdan qulaq tutulur,
məni kimsə salmaz yada.

Görən hara qaçıb külək,
meh də əsmir dənizimdən,
bu gün məni tapan olsa
ölər qorxub bənizimdən.

Ağacı yox kölgə sala,
bu qumlar bişirdi məni,
qulağıma gələn səslər
aldadıb şişirdi məni.

Məni geri qaytar, Allah,
çıxmışam özüm özümdən,
əllərim sözümə baxmır
sən məni salma gözündən.

Bu boşluq boğacaq məni,
tapılmır baxışın yeri,
əlini bir başıma çək,
gəl, sən məni qaytar geri.

*09.07.2004*

# gecə hekayətİ

bu gecə öz evimdə
vağzaldakı kimiyəm.
çoxdan yola düşmüş qatarın
bileti əlimdə…
otaqlar pəncərəsi bağlı kassa,
mətbəx şərabı qurtarmış bar,
cibimin sonuncu pulunda
kirayə ağırlığı var.
dəhlizin küncündəki yol çantası
məni bayıra itələyir kürəyimdən,
otağın boşluq vahiməsi
asılıb ürəyimdən.
xatirələrimi silkələyən
gözə görünməz əsgər məktubları
uçuşur otaqda.

bu gecə öz evimdə
vağzaldakı kimiyəm.
çoxdan yola düşmüş qatarın
bileti əlimi yandırır.

*2006*

# ormanda bİr yaşıl ağac

mən əllərini günəşə uzadan bir yaşıl ağacam
məhv olan ormanda.

pöhrə ümidlər qırılır sabahımda,
qol-budaq doğranır
gözümün qabağında.
çiliklənən illər alışır,
tüstüm buluda qarışır.
səsimə səs verəcək kəsin
dili lal, qulağı kar,
göy üzü damar-damar…
gəzir bu məmləkəti
hər cəllad əlində bir qanlı balta,
burda yaşamaq, yanmaq saxta.
səmanın qaranlıq qorxusu
dənizə çırpılır,
ürəklər oyuq-oyuq,
ürəklər yarpaqtək çırpınır
qan rəngli dumanda

mən əllərini günəşə uzadan bir yaşıl ağacam
məhv olan ormanda.

*2006*

# doğum günü

neçə ildi ad günümüzdə
anasız doğuluruq biz
bu hamilə dünyada.
bu səhər yenidən doğuldum
ağrılar, sevinclər savaşında.
fevral soyuq,
həyat soyuq…
arzular oyuq-oyuq.
nə vaxtdı
doğum günümü özüm keçirirəm,
yadına düşənlər, düşməyənlər var.
atam keçirəndə
ad günümə hamı gələrdi,
sevinərdi, gülərdi…
bu gün məni ilk təbrik edən
əsgər oğlum oldu
səhər səkkizin yarısında.
mən isti evdə,
oğlumun üzünü sazaq kəsir sərhəddə…

məni təzədən dünyaya gətirərdinmi ana,
soyuq fevral ayında?

*11.02.2006*

# adİl mİrseyİdİn akvarellərİ

uzaqdan dənizə qovuşan
sevdalı buludlar
adil mirseyidin akvarelinə köçəcək bir azdan
sonra da dolub dolub boşalacaq
yumaq istəyəcək
gümanı yağışa yağmura qalan
bu məmləkətin günahlarını
ya da qəfil gələn rüzgar
qovub aparacaq
əlində fırça tutmuş
bir divanə rəssamın
ümidləri üstünə
buludların ovqatı
qarışıb rəssamın ovqatına
köçəcək rənglərin yeddinci qatına
bu başqa bir mənzərədi
rəssamın akvarelində
hüznlü göyüzü və biz

təkcə adil mirseyidin akvarelində qalacaq
sevdalı buludlar
ağ-qara ümidlər
bir də gözünü göy üzünə dikən dəniz

*21.12.2004*

# yollarda qalan baxışlar

lampası yanan otaqda
ümiddən sallanan,
qapıya dikilən zaman
yaddaşlara hopar,
həsrətin silkələdiyi dar otağın
baxışlardan ovulmuş divarlarında
xəyallar dolaşar,
toz basmış illər çözələnər,
bu gündüz gecələrdə

səbri tükənən,
yollarda qalan baxışlar
sümürəcək səni
barmaqlıqlar arasından,
qanad açıb uçacaq
bir şairin qan sızan yarasından.

*2004*

# Kəndİmizə qar yağır

Kəndimizə yenə qar yağır
qar yağır, ağır-ağır,
torpağı örtən qarda
addım izləri yox.
Quşlar ləpir salır
ilk qarın sinəsinə,
gün keçir qar üstündən
gün keçir, sinə-sinə.
Ağaclar sanki şəkil çəkdirir
ağ vərəq qucağında,
odunlar çürüyür
evlərin sönmüş ocağında.
Qaratoyuqlar qartopu oynayır budaqda,
uşaqlıq xatirələrim büzüşüb
uçmuş evdə, otaqda.
Xəyalların səs-küyü
təpənin o tayında,
hərəsi öz hayında.
Üşüyən barmaqlar heykəl əlləri.
Içimi üşüdür göz yaşının sırsırası,
don vurmuş sifət qüruba sarı,
təpələr qar tayası,
yanmış evlər qaralır ağ qarın içində,
hərəsi bir biçimdə.

Bəyaz qar taleyi ağarda bilmir
qar, qara günə neyləsin?
Uzaq xatirələrdən gəlir
sənin səsin.

*19.01.2005*

# Həzİn duyğular

Üz-gözümdə bir baxışın kölgəsi,
qulağımda iyirmi üç il öncənin qadın səsi,
köksümdə o illərin havası,
içimdə qalibiyyət davası,
başımda köhnə sevgi avazı,
ayın o üzü qaranlıq…
Təpəyə dərədən boylanıram,
qulağıma gələn səsi
xatirələr cığırında axtarıram.
Həzin duyğular qucağında,
köksümün öləziyən ocağında,
məni halsız edən rüzgar-
səsini gətirənmi,
səni aparanmı,
bilmədim.
Mən kövrək buludlar arasında,
səni axtarıram
gecələr ulduzlar sırasında…

*2007*

# Mən bİr sİmurq quşu

Arzular uçurdacaq məni göy üzünə,
soraqlar qopacaq lələklərimdən,
sevdalar süzüləcək könlümün süzgəcindən,
pəmbə buludlar örtəcək üstümü ay işığında.
Gəzəcəm qitələri öz rəngində:
Şimal buzlu okeanın, Antraktidanın buzunu
daşıyacam Afrikaya
günün günorta çağı.
Yaşıllıqları aparacam Ərəbistan səhralığına,
Skandinaviyanın göllərini qonaq edəcəm
Saxara qumsallıqlarına.
Boş torpaqları icarəyə verəcəm Çinə, Yaponiyaya…
və nələri, nələrə, kimlərə…
Bir də
Asiyaya, Afrikaya, Amerikaya və haralara…
elə buralara
azadlıq səpəcəyəm
buludların gözləriylə.
Təzələnəcək dünya,
təmizlənəcək dünya.

Ay üzü,
bulud gözü,
tərtəmiz göy üzü,
bir də azad yer üzü.

Mən bir simurq quşu…

*12.08.2012*

# Gecə baxışları

Bu gecə süzülən işıqda
ağaclar elə gözəl, elə yaşıl,
yarpaqlar elə sakit-
gözəllikdən çaşmış kimi.

Gözləri gözünə dikili,
qulaqları sözünə.

Baxışlardan yer yox
sənə baxmağa.

Ağaclar əlimdən aldılar səni bu gecə,
göz görə-görə.

Kimsənin yapmadığını
mənə yapan ağaclar,
mən sizə arxalandım,
sizə güvəndim,
sizə söykəndim.

Bu gecə önümə keçən ağaclar,
savaşmı açım sizə?

*04.10.2012*

# Qürbətdə qar

Qürbətdə yağan qar
bizim şəhərə yağan qara oxşamır,
elə adamlar da.
Bu adamların gedəcəyi yer də başqa,
deyəcəyi şeir də başqa,
oxuyacağı mahnılar da başqa.
Adamlar vağzaldan harasa dağılışırlar,
vağzala axışırlar
səhər-axşam.
Dünyanın bütün vağzallarında
qələbəlik içində
tək-tənha olur adam.
Yola salmalar,
qarşılamalar,
alqışlamalar başqa.
Bura qürbətdi,
buranın qarı da
sakit-sakit yağır,
adamları da
sakit-sakit danışır,
araba,
dollar,
rus pulu,
qrivna,
qışqıran yox,
adam dolu vağzalda,
üzünə,
gözünə,
özünə,
yükünə

göz dikən yox,
cibini sökən yox.
Bu qürbət vağzal bizim vağzala oxşamır,
elə adamlar da,
burda quşların gözü
yol çəkir damlarda….

*14.02.2005*

# Mənİ səndən alan qatar

Dəmiryol vağzalı,
səhər-axşam doludu gözləmə zalı.
Vağzal radiosundan şəhərin ən gur səslisi
tələsdirir hamını
öpülənlər, öpənlər,
sevinc və ayrılıqlar,
vüsalla həsrət
vağzala boşalır,
vağzaldan baş alır,
məni səndən alır
gecənin ayrılıq
ümid yuxuları.
Yola düşür qatar,
artır qatarın səsi,
kəsilir yolların nəfəsi.
Uzanıb gedir relslər,
artan dirəklərin sayı
qatarın ürək döyüntülərinin ritmi-
dəmiryol notları.
Stansiyalar boyu
həsrəti ötürə-ötürə gedir qatar,
ümidlər, ayrılıqlar,
pəncərədən boylanar,
tənhalığın gecəsi yorulub yatar,
gözlərində təlaş,
havada yellənən əllər,
qoynunda gizlənər
yavaş-yavaş.
*14.02.2005*

# Lİstopad

Listopad…
üzündən üzgünlük tökülür,
gözlərindən yaş,
küləklərin oynatdığı yarpağı
yağış döyür yavaş-yavaş,
yarpağın köç dövrüdü,
xatirələrin kövrələn çağı,
könüldə ilin son arzuları,
ümidlər saralır
yarpaqlar kimi,
solan ümidlər…

Noyabr ayına
«Listopad» deyir, polyaklar,
necə də gözəl, necə də dəqiq:
«Yarpaq tökümü» ayı-
Mazurka meşələrində yarpaqlar tökülür,
ilin son günləri bükülür,
Rekviyem çalır küləklər…

Yarpaqlar tökülür payız axşamı,
saralmış yarpağı oynadır külək,
Listopad ayında
ilin son günləritək
gör necə döyünür sinəmdə ürək.

*15.11.2012*

# məhkəmə bİnası qarşısında

kədərli məhkəmə binasının yanındakı
yaşıl parkda oynaşan uşaqlar
nə başa düşürlər
içəridəkilərin azadlıq sevdasını…
bilsəydilər
səs-küy salıb
səni tutdum, səni tutdum, – deyə
qışqırmazdılar…

*18.08.2004*

# bənzəyİş

bu həyat-sənin həyatın,
bu ömur-sənin ömrun.
yaşadın günləri varaq-varaq
başa vuraraq,
illər özü gəlib getdi
ayların arxasınca.
yaxşılığa əlimiz gəlmədi
ömrünə əlavə edək,
ayından, ilindən kəsdik,
ömründən, günündən,
arzundan, diləyindən, dilindən kəsdik…
onu biz bacarırıq.
xatırladığın günlərin lap azında
üzünə təbəssüm qondu,
qonub üzündə dondu.
yaxşılıqların alğış,
pisliyin qarğış
dolusu
dolaşır aramızda,
özünü aldatdığın yalanlar
içini döyəcləyir.
bu ömür necə də mənim ömrümə bənzəyir…

*10.08.2004*

# Yorğun şəhər

İllər boyu yordu məni,
burulğantək sordu məni,
bu şəhərin dolanbac küçələri,
bu şəhərin Aylı gecələri…
Yaşamağa taqətim yox,
həvəsim hardan?
Ötüb keçənlər məndən betər,
bu şəhərdən çıxıb getmək vaxtıdı
yetər artıq, yetər.

Qala divarları
təzə şəhərin çılpaq ədasından,
səs-küyündən
utanıb sıxılır,
içinə qısılır İçərişəhər.

Qız qalasının
sahil sularına kölgəsi çatmır,
dəhşətə gəlmiş Ay gecələr yatmır.

Şəhər sürüyür
yorulmuş küçələri dənizə sarı.
Qorxub geri çəkilir dəniz.

Burda ümid peşimandı,
dalğalar pərişandı.

Küçə dar gəlir mənə,
«yorulmuş atları güllələyirlər» yenə…

*22.08.2004*

# SənİN gecən

Bu gecə sevdiyin hər şey sənin:
səmanı verim sənə,
bir də aylı gecəni,
bir də mavi dənizi,
bir də qumlu sahili…
bir də ləpələrin mehini-
saçını darayasan
baxıb dəniz güzgüyə

söykənib arzulara
doyunca baxım sənə…

*30.11.2012*

# Palatada yazılan şeİr

Palata pəncərəsindən bayıra boylanıram
yenə həmin bağ,
yenə həmin vədə,
oturacaqdan qalxan kölgələr
ağaclar arasından addımlayır sakitcə,
həyat davam edir ahəstə,
ilk dəfəydi baxırdım palata çarpayısından,
ilk dəfəydi baxırdım ayrılığın arxasından,
ilk dəfəydi ayrılıq özü gəlmişdi məni görməyə…
burda yatanların hamısı müvəqqəti, köçəri,
bir sevda boylanır pəncərədən içəri
əlində umud
söyləyir: ağrıları unut…, unut…
həkim məni əməliyyata aparır,
süpürgəçi qadın ayaq izlərimi süpürür,
qulağıma addım səsləri gəlir xəzəl qarışıq
bil, gülüm,
burdan bayırda hər şey yaraşıq

…bu da sevdiyimiz payız

*01.12.2012*

# GözlərIndə bIr röya

Əllərində bir dəniz,
gözlərində bir röya,
yanağın bir ay kimi
işıq salır gözümə,
barmaqlarım dalğatək
telində dalğalanır,
saçının həzin mehi
üzümdə sığallanır,
mənə dikilən baxış
tökülür üz-gözümə
mehriban xəyal kimi,
durub baxıram sənə
dili donmuş lal kimi,
bir ömürlük arzular
damla-damla süzülür
o qönçə dodaqlardan
ürəyimə bal kimi

necə də gözəl həyat,
sığın bu sinəmə, yat.

*19.11.2012*

# Qoca balıqçı

Göy üzü təmizlənib
ağ-qara buludlardan.
Kölgəsiz dənizdə
pıçıldaşır,
oynaşır
xırda-xırda ləpələr,
sükutu pozur
qağayıların səsi,
sanki qoca balıqçının
kəsilibdi nəfəsi.
Bəlkə tilov köhnəlib,
ya balıqlar dəyişib
zamanın gərdişindən,
halidi balıqçı vərdişindən.
Bu zamanın suyu da,
havası da dəyişib,
dənizində balığı,
tavası da dəyişib…
Balıqlar da yan keçir
neft tankerləritək.
Ləngər vuran qayıqda
xəyalı lövbər salan
qoca balıqçı sümürür papirosu,
baxır dəniz sonsuzluğunun
göy üzünə birləşən xəttinə.

Kölgəsiz dənizə
ləpələr layla çalır,
qoca balıqçının əlində
axşamın ümid tilovu mürgüləyir.

*09.11.2004*

# nöqtəsİz ayrılıq

bir gün mənimçün də var
bu ayrılıq

ayrılacağam,
ya məni məcburi ayıracaqlar
səndən,
sizdən,
hamıdan

baxıb nəsə danışacaqsınız
boş otağıma,
boş yatağıma,
boş yerimə…

hələ bəlkə
nəsə yazacaqsınız
boş qalmış vərəqlərə…

təkcə
ayrılığa nöqtə qoymayın

*01.01.2004*

# Sankt-Peterburqda bəyaz gecə

çoxmərtəbəli binanın yatmayan otağı,
masanın üstundəki açılmamış şərab şüşəsi,
səliqəsi pozulmayan çarpayı,
bədənimi silkələyir ürəyimin harayı.
yeri-göyü birləşdirir bayırda yağan yağış,
biri-birinə dikilir baxış.
hamam güzgüsütək pəncərəni tərlədir
aramızdakı yarımaddımlıq məsafənin həyəcanı…
bu bəyaz gecəli şəhərdə
otağın sükutu şəhərin gecəsini səhərə sürüyür
lal-dinməz…

*18.11.2003*

# Qumru quşu

Yenə həmin qumru quşu
yanını basa-basa,
çönüb geri baxa-baxa,
düşüb qabağıma aparır məni
bu köhnə parkın
ot basmış cığırıyla.
Telini sığallayıb,
gözünü sürmələyib,
hara bəzənmisən belə,
gözəlim, qumru quşu?
Rəhm elə mənə,
dayan, bir özumə gəlim
bu nə röyadı belə,
bu nə sevdadı belə?
Sən oxuya biləcəkmisən
tənhalıqda özüm-özümə qüssə dolu
yazdığım məktubları?
Başını döndər gözunə baxım,
gözünü gözümə taxım.
Apar məni, qumru quşu,
apar məni, xəyallar, nağıllar qoynuna…

*12.10.2004*

# Görüş

Hara tələsirəm mən?
Nə səhərdi, nə axşam.
Günün günorta çağı
arxada Sahil bağı.
Ötürəm, küçələri,
sərgi salonlarını,
marketləri, dalanları.
İndi nahar vaxtıdı,
amma kafe boş.
Yay günəşi altda
insanlar yarı sərxoş.
Yenə tər içindəyəm,
yenə tələsirəm mən.

Yolumu gözləyən var,
sirrimi gizləyən var.

*2004*

# həsrət

cibimdə səni görmədiyim
günlərin sayı qədər validol…
birdən üzümə baxmadan
nələr dəyişib ki, bu qədər vaxtda, -deyərsən
özüm də bilmədən.
çıxdığım qapıdan
arxamca su at,
ya içməyə su ver,
fərqi yox artıq

ağzımdan çıxan ürəyimi
sol döş cibimə qoyub getdim biryolluq…

*04.11.2004*

# təəssürat

qarma-qarışıq, izdihamlı vağzal,
metronun yalnız özünəməxsus havası,
mavi aynalı mazutlu dəniz,
qaynar qazan kimi həyat,
harasa tələsən laqeyd adamlar,
yarı sərxoş axşamlar,
bir də neon reklamlı gecələr,
röya kimi gözəl qızlar
və sonda
yorulmuş ayaqların şikayəti,
bir də sızıldayan boş şeylərlə dolu yaddaş.

*14.10.2004*

# əzab

ayrılmaq nə qədər çətin
sənə doğma səsdən, sözdən, üzdən…
ayrılmaq nə qədər çətin
səni axtaracaq baxışlardan, gözdən…
ayrılmaq nə qədər çətin
günəşindən, ayından,
qışından, baharından…
ayrılmaq nə qədər çətin
özündən ayrılan kimi…
ayrılmaq nə qədər çətin
hətta səni itirən
lal gecədən belə.

*26.10.2012*

# ayrılıq gecəsİ

bu gecənin qaranlığı var gözlərində,
üzündə son yarımçıq təbəssümün kölgəsi.

# Конец ознакомительного фрагмента.

Текст предоставлен ООО «ЛитРес».

Прочитайте эту книгу целиком, купив полную легальную версию на ЛитРес.

Безопасно оплатить книгу можно банковской картой Visa, MasterCard, Maestro, со счета мобильного телефона, с платежного терминала, в салоне МТС или Связной, через PayPal, WebMoney, Яндекс.Деньги, QIWI Кошелек, бонусными картами или другим удобным Вам способом.